# Vətən müharibəsi - tarixin kino həlli


«Titrəmə» filminin çəkiliş prosesi

Bu günə kimi televiziyada, mətbuatda tez-tez Qarabağ müharibəsi haqqında yaxşı filmlər çəkilmir, sanballı əsərlər yazılmır fikirlərinə rast gəlmişik. Baxmayaraq ki, bu mövzuda maraqlı filmlər də, ədəbi əsərlər də var. Səslənən fikirlərlə tam razılaşmayan rejissorların və ssenaristlərin cavabları belə idi: torpaqlarımız azad olunandan sonra Qarabağ mövzusunda daha möhtəşəm əsərlər meydana gələcək...

Müharibə həqiqətlərinin, torpaqları işğal olunan məmləkətin üzləşdiyi faciələrin yetişməkdə olan nəslə, eyni zamanda beynəlxalq aləmə çatdırılmasında kino əvəzsiz vasitədir. Bu mənada Qarabağ həqiqətlərinin dünyada tanıdılması işində kinodan bacardıqca səmərəli istifadə etməliyik. Kino böyük təbliğat silahıdır və dünyada bu vasitədən istifadə qaydalarını yaxşı bilənlər çoxdur.

Vətən müharibəsində əldə etdiyimiz qələbənin sənətdə əksini tapması aktual məsələyə çevrilib. Torpaqlarımızın işğaldan azad olunması sənətin müxtəlif sahələrində öz təzahürünü tapmalıdır. Kinoda qələbə ruhu mövzusunda fikirlərini bizimlə bölüşən kino mütəxəssislərinin də mövzuya öz baxışları var.

Rejissor Tahir Əliyev deyir ki, kinomuzun Qarabağ səhifəsi son 30 ildə yalnız ümid, “biz qayıdacağıq”, “gələcək bizimdir” kimi şüarlar üzərində qurulmuşdu: “Filmlərimizin sonu, demək olar ki, yox idi. İndi isə yeni səhifə açıldı. Gənc rejissor və ssenaristlər bundan istifadə edəcəklər. Amma burada diqqətli olmaq lazımdır. Ard-arda kütləvi filmlər çəkmək də düzgün sayılmaz. Mövzunun elə yerinə toxunmaq lazımdır ki, özümüzdən savayı başqaları da filmlərə baxanda acıya bilsin, düşünsün. Necə ki, “Pianoçu”, “Şindlerin siyahısı” və s. bu kimi filmləri seyr edəndə digər millətlərə ürəyimiz yanır, talelərinə biganə qala bilmirik. Təbii ki, ədəbiyyatımız, teatrımız və musiqimiz də bundan yararlanacaq”.

Tahir Əliyev müharibəni təqdim etmək üçün sənədli, yoxsa bədii effektivlik məsələsinə də toxunur və deyir ki, müharibənin aktiv dönəmində əsas güc xronikanın üzərinə düşür: “Çünki xronika gələcək nəsillər, ümumən tarix üçün vacibdir. Dünyaya Qarabağ müharibəsini çatdırmaq üçünsə əsas bədii filmlərdir. Bu torpaqlar, demək olar ki, talan olunub. Müharibənin bombasından, küçə savaşından, baxımsızlıqdan dağılmaq yox, ermənilər oraları konkret olaraq talan ediblər. Məncə, təəccüblənməyə dəyməz. Belə düşməndən ayrı şey gözləmək də mümkün deyil. Neyləməli?.. Bundan sonra diqqətli olmalıyıq. Torpağı öz ahənginə qaytarmaq lazımdır. Bizlər də bu işdə fəallıq göstərməliyik. O torpaqlarda sadəcə tikib düzəltmək yox, ürəklə yaşamağa və işləməyə ehtiyac var. Hər rayonda isə ən azı dağılmış kəndlərdən muzey düzəltmək lazımdır”.

> ***“Qarabağ müharibəsi ilə bağlı daha çox ümumbəşəri - bir almanın, ingilisin, fransızın ürəyini dağlayacaq, düşündürəcək mövzuda ssenarilər yazılmalı, filmlər çəkilməlidir: İkinci Dünya müharibəsində ingilis də, alman da vandalizmi görüb. Yəni ermənilərin törətdiyi vandalizmdə onlar üçün qeyri-adi bir şey yoxdur. Min illərdir, insanlar yarananda bir-birinə qarşı zorakılıqla məşğuldur. Kinoda daha çox ümumbəşəri nöqtələrə toxunmaq lazımdır.”***

***- İşğaldan qurtulmuş torpaqlarda yaşanan hadisələri dünyaya çatdırmaq üçün filmlərin rolu nədən ibarətdir?***

- Dünyanın ən yaxşı rejissorları bizim kinematoqrafçılar qədər Qarabağ mövzusunu hiss edə bilməzlər. Orda dağıdılan şəhərlər, kəndlər bizim üçün faciəli tarixdi. Digər xalqları o, bu qədər də maraqlandırmır. Dağıdıclıq, talan, öldürmək müharibənin elementlərindən biridir. Yəni avropalı və digər millətlərə dağılmış evləri göstərməklə nəsə əldə edə bilmərik. Əsas insan talelərini önə çəkmək lazımdır. İkinci dünya müharibəsi mövzusunda Azərbaycan

mövzular idisə, bundan sonrakı dövrdə kinonun Qarabağla bağlı paradiqma artıq «Qarabağı qururuq» mövzusu olmalıdır. Biz qalib gəldik, torpağımızı qaytardıq və bundan sonra Qarabağımızı necə çiçəkləndirəcəyik?"

Həmsöhbətim deyir ki, Vətən müharibəsinin özü bütövlükdə bir mövzudur: "Həm döyüş səhnələri, orada döyüşən gənclərin əhvalı, psixoloji məqamlar və s. Yəni bu təkcə bina tikmək deyil, ictimai-sosial münasibətlər, orada yaşayan insanlar, qayıtmış əhali, bir sözlə, mövzular genişdir və bunların hər biri kinomuzda yeni səhifə olacaq".



«Yarımçıq xatirələr» filmindən kadr

filmləri mükəmməldir. Fikir veirirksə "Şərikli çörək", "Bizim Cəbiş müəllim", "Mən ki gözəl deyildim" filmlərində müharibə, top-tüfəng yoxdur. İnsan taleləri əsas götürülüb. Bax belə filmlər çəkilməlidir.

## QARABAĞLI REJİSSORUN FİLM ARZUSU...

Gənc rejissor, əslən Laçın rayonundan olan Amil Məmibəyli deyir ki, bu mövzu ona çox yaxındır: "Debüt filmimin adı belə "Qara bağ"dır və oradakı hadisələr Qarabağla bağlıdır. Bu mövzu məni daim düşündürüb. Şükürlər olsun ki, artıq biz Qarabağ problemindən yox, Qarabağ zəfərindən danışırıq. Bundan əvvəlki filmlərimizdə həmişə bir natamamlıq kompleksi var idisə, 44 günlük savaşdakı tarixi qələbədən sonra artıq biz o vəziyyətdən çıxdıq. Daha biz Vətən müharibəsini qələbə ilə yekunlaşdırmışıq. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun tarixi zəfəri xalqımızı böyük bir sevincə qərq etdi. Hamımız şəhidlərimizin, qazilərimizin qəhrəmanlıqlarının şahidiyik. Belə halda artıq finalı qələbə ilə yekunlaşan filmlərimiz, əlbəttə ki, olacaq. Mən daha çox məhz bu mövzularda film çəkmək niyyətindəyəm. Bir rejissor olaraq, film çəkməzdən əvvəl öz evimizə getmək, dədə-baba yurdumuzu görmək fikrindəyəm. Atam, anam və mən çox xoşbəxtik. Onların sevinci mənə bəs edir ki, bu sevincdən sonsuz ilham alım. Mən onlarla birlikdə Laçına getmək, doğmalarımın sevincini görmək istəyirəm. Rejissor üçün əsas meyar yaşantıdır. O yaşantılar yerində və öz ünvanında olanda adamın içində bir rahatlıq yaradır. Bir sözlə, həyatımızın bugünkü reallığı qələbəmiz kimi, tezliklə milli filmlərimiz də öz yeni tarixi salnaməsini yazacaq".

## QARABAĞI QURURUQ PARADİQMASI...

Son dövr kinomuzda Qarabağ mövzusunda ən uğurlu filmlərin rejissoru kimi tanınan Əməkdar incəsənət xadimi Elxan Cəfərovun da fikirlərini öyrəndik: "Bilirsiniz ki, mən bu mövzuda üç film işləmişəm. "Dolu" (2012), "Yarımçıq xatirələr" (2015) və "Qarabağdır Azərbaycan" (sənədli-bədii film 2009). Bu filmləri çəkən zaman heç vaxt bizim qalib ölkə olub-olmadığımız mənim üçün əsas deyildi. Əgər bundan əvvəl filmlərimizdə Qarabağa necə qayıtmağımız, Qarabağsız Azərbaycan, Qarabağı heç vaxt unutmayacağıq kimi



«Dolu» filmindən kadr

***

***Vətən müharibəsi zamanı düşmənin mülki insanları hədəfə almasından bəhs edən iki sənədli televiziya filminin müəllifi olan rejissor Ramil Ağasıyev isə müharibədə zəfərin kinoda əksi ilə bağlı hələ tələsmir. Deyir, biz müharibənin terror tərəfini gördük: "Amma müharibə haqqında çox incəlikləri bilmirik. Müharibənin bütün təfərrüatları aydınlaşandan sonra onu kinoda əks etdirmək olar".***

***

***Şübhəsiz, qələbədən sonra Vətən müharibəsi haqqında daha güclü ssenarilər yazılacaq, filmlər çəkiləcək. Ali Baş Komandanın bu 44 gündə xalqa müraciətləri, əsgərlərimizin qəhrəmanlıqları və müharibədən geri qalanlar şanlı salnamə, tarixdir. Bütün bunlar əsas mövzu kimi ciddi şəkildə ədəbiyyatda və kinoda öz əksini tapmalıdır!***

**Lalə Peyman**